# "Aktyor rejissora inanmalıdır"

## Əməkdar artist Sucəddin Mirzəyev: "İranda bizim aktyorları səhnədən buraxmaq istəmirdilər"

***Lənkəran Dövlət Dram Teatrının aparıcı aktyorlarından biri, Əməkdar artist Sucəddin Mirzəyev ötən ili yaradıcılıq baxımından uğurlu sayır. 40 il çalışdığı bu kollektivlə birgə Təbriz şəhərində keçirilən Fəcr Beynəlxalq Teatr Festivalında iştirak edib, İranın bir neçə şəhərində qastrol səfərində olub, milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadənin ölməz əsərlərindən sayılan "Hacı Qara" komediyasında baş rolu oynayıb, yetərincə reytinq qazanan "Günəşim ol" teleserialında çəkilib...***

***İstedadlı aktyorun ötən il həm də 60 yaşı tamam olub. Yubiley mərasiminin təxirə salınmasının isə xüsusi səbəbi var...***



**- Sürətlə ötüb-keçən illərdən birini də arxada qoyduq. Əməkdar artist Sucəddin Mirzəyev üçün 2016-cı il necə yadda qaldı?**

- Mürəkkəb bir ili başa vurduq, amma yaradıcılıq baxımından şəxsən mənim üçün uğurlu il oldu. Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Bəhram Osmanov bizim teatrda Əli Vəlioğlunun "Əsrlərin harayı" tamaşasına quruluş verdi və mənə Harpak obrazını həvalə etdi. Çox maraqlı, xarakterik bir obraz idi. Gərgin məşqlərdən sonra məncə baxımlı bir tamaşa ortaya qoyuldu və mənim rolum da bəyənildi. Sözün açığı, özüm də belə bir obraz üçün darıxmışdım, ona görə var qüvvəmlə çalışdım. "Əsrlərin harayı"nı tez-tez oynayırıq, hər dəfə də həvəslə səhnəyə çıxıram.

Ötən il teatrımız Bakı qastrolu zamanı paytaxt tamaşaçıları qarşısında iki yeni səhnə əsəri ilə növbəti hesabatını verdi. Mən bu iki tamaşadan birində - İran dramaturqu Bəhram Beyzayinin "İlan Sultan" pyesi əsasında hazırlanan tamaşada Salnaməçi rolunda çıxış etdim. İrandan dəvət edilən gənc rejissor Xeyrullah Təğiyanipurun quruluş verdiyi həmin tamaşa ilə biz Təbrizdə keçirilən ənənəvi Fəcr Beynəlxalq Teatr Festivalında iştirak etdik, həm də Məşhəd şəhərində qastrolda olduq.

Bu tamaşa beynəlxalq festivalda uğur qazandıqdan sonra bizi yenidən İran İslam Respublikasına dəvət etdilər, dekabrda Gilan vilayətinin Rəşt şəhərinə bir həftəlik qastrola getdik. Ali təhsillə bağlı diplom alan gündən Lənkəran Dövlət Dram Teatrında çalışıram, bu 40 ildə doğma teatrla Özbəkistanın, Türkiyənin müxtəlif şəhərlərində qastrol və festivallarda iştirak etmişəm. Amma Rəşt qastrolu bunların heç birinə bənzəmədi, aradan iki ay keçməsinə baxmayaraq hələ də bu səfərin təsiri altındayam. Kollektivimizin üzvləri də yəqin ki, eyni hissləri keçirir, çünki hamımız İrandan zəngin təəssüratla qayıtmışıq. Bir həftə ərzində biz Rəştdə yaşayan tamaşaçılara "İlan Sultan" tamaşasını təqdim etdik. Tamaşanın necə böyük maraqla qarşılandığını sözlə çatdırmaq mümkün deyil, inanın, hər dəfə bizi səhnədən buraxmaq istəmirdilər. Aktyorlarımızla şəkil çəkdirir, onların ifasını müzakirə edirdilər, bəzən bu söhbətlər tamaşanın özündən uzun çəkirdi. Bəziləri iki-üç gün dalbadal tamaşaya baxdığını deyirdi. "İlan Sultan"a baxmaq üçün İranın müxtəlif şəhərlərindən gələn tamaşaçılar da çox idi. Rəşt şəhərinin də daxil olduğu Gilan vilayətinin rəhbərliyi bizə olduqca xoş münasibət bəsləyir, diqqət göstərirdilər. Hər tamaşanın sonunda zala daxil olan milli geyimli gənclər Azərbaycanın və İranın dövlət bayraqlarını cərgələrin arası ilə səhnəyə qaldırır, iki qardaş və qonşu ölkənin şərəfinə şüarlar səsləndirirdilər. Belə bir mənzərəni görmək hər birimiz üçün xoş idi.



**- Bu yaxınlarda sizi səhnədə Hacı Qara obrazında da görmək mümkün oldu...**

- Teatrlar Mirzə Fətəli Axundzadənin əsərlərini tez-tez öz repertuarlarına daxil edirlər, Lənkəran səhnəsində də böyük dramaturqun pyesləri zaman-zaman oynanılıb. Lakin "Hacı Qara" bizim teatrda bu günə kimi tamaşaya qoyulmamışdı. Hacı Qara həm ədəbiyyatımızda, həm də teatr sənətində öz çəkisi olan bir obrazdı, həmişə xəsisliyin simvolu kimi tanınıb. Amma tamaşanın quruluşçu rejissoru, "YUĞ" Dövlət Teatrının baş rejissoru Gümrah Ömər fərqli bir baxış bucağından yanaşdı, bizim tamaşada Hacı Qara xəsis yox, bugünkü dillə desək, biznesmendir. O, pul qazanmaq, başladığı hər işdən gəlir götürmək istəyir. Dramaturq bu əsəri komediya kimi qələmə alıb, Hacı Qaranın düşdüyü vəziyyət həqiqətən də tamaşaçıda gülüş doğurur, lakin Gümrah Ömər Hacı Qaranı tam ciddi bir obraz kimi təqdim etməyimi istəyirdi, mən də buna çalışdım. Baxmayaraq ki, tam fərqli bir düşüncədə idim...

**- Bəs niyə obrazı öz görmək istədiyiniz kimi deyil, məhz quruluşçu rejissorun görmək istədiyi kimi təqdim etməyə razılaşdınız?**

- Mənim fikrimcə, aktyor rejissora inanmalıdı, əks halda obrazın həllini tapmaq çox çətin olur. Səhnəyə çıxdığım ilk gündən bu prinsiplə işləmək istəmişəm. Aktyor olaraq mənə tapşırılan obraz barədə düşünürəmsə, quruluşçu rejissor bütöv bir tamaşaya cavabdehdir, onu necə görmək istəyirsə, elə də hazırlamağa çalışır.

**- Bildiyim qədəri ilə "Hacı Qara" Bakıya da gələcək...**

- Biz tez-tez paytaxt tamaşaçılarına yaradıcılıq hesabatı verir, yeni tamaşalarımızla onları tanış edirik. Teatr rəhbərliyinin Bakıya növbəti qastrolumuz barədə planı var, yəqin ki, bir neçə aydan sonra "Hacı Qara"nı paytaxt səhnəsində oynayacağıq.

**- Çəkildiyiniz teleserialda işlər necə gedir?**

- ATV kanalında xeyli müddətdir ki, "Günəşim ol" teleserialı nümayiş olunur, rejissor Şahin Qəhrəman bu teleserialı Lənkəranda çəkir və teatrımızın həm təcrübəli, həm də gənc aktyorlarına rol verib. Mən xeyli reytinq qazanan bu teleserialda məktəb direktoru Ədalət roluna çəkilirəm. Dekabrda İranda qastrolda olan zaman insanlarla söhbət edəndə məlum oldu ki, "Günəşim ol" qonşu ölkədə də maraqla izlənilir. Teatrımızın öz yetirmələrinin belə uğur qazanması məni sevindirir. Mən və digər həmkarlarım teleserialda çəkilən gənclərə məsləhət və tövsiyələrimizi veririk.

**- Ötən ilki uğurlardan gen-bol danışdıq, amma yubiley məsələsinə heç toxunmadıq. 60 yaş geniş yubiley keçirmək üçün yaxşı fürsət idi, amma nədənsə bu məsələnin üstündən sakitcə keçdiniz...**

- Teatrın direktoru Tofiq Heydərov sağ olsun ki, yubileyimin keçirilməsi ilə bağlı tapşırıq vermişdi, ssenari yazılmış, hətta dəvət ediləcək qonaqların siyahısı da hazırlanmışdı. Lakin aprel ayında baş verən döyüş əməliyyatlarından sonra tədbirin hazırlıqlarını dayandırdıq. Həmin günlər hərbçilərimiz erməni işğalçılarına sarsıdıcı zərbə vurdu, amma döyüş əməliyyatları zamanı şəhidlər də verdik. Şəhidlərimizə yas tutularkən mənə yubiley keçirmək, sevinmək düzgün olmazdı, insanlar da heç o ovqatda deyildi. Bütün kollektiv belə qərara gəldik ki, mərasimi təxirə salaq, inşallah 65 illikdə nəsə fikirləşərik. Tədbir keçirməsək də Mədəniyyət və Turizm Nazirliyi mənim 60 illik yubileyimə biganə qalmadı, hörmətli nazirimiz Əbülfəs Qarayev ünvanıma teleqram göndərdi, isti sözlərlə məni təbrik etdi. 40 il Bakıdan kənarda çalışan bir aktyor üçün bu böyük qiymətdi, deməli çəkdiyim əziyyəti qiymətləndirirlər.

**- Yeni il sizin üçün necə başlayıb?**

- Şükür Allaha, pis başlamayıb, artıq yeni bir rol almışam. Lənkəranda yaşayan yazıçı-jurnalist Hafiz Mirzə ilk pyesini teatra təqdim edib, milli-mənəvi dəyərləri, adət-ənənələrimizi, ailədə formalaşan münasibətləri önə çəkən bir əsərdir. Quruluşçu rejissor, Əməkdar artist Adil Zeynalov bu tamaşada mənə Ata obrazını tapşırıb. Yaxın günlərdə məşqlərə başlayacağıq, inanıram ki, maraqlı bir tamaşa olacaq.

**Etibar CƏBRAYILOĞLU**